**QƏRBİ KASPİ UNİVERSİTETİ**

# SÜNİ İNTELLEKT SİYASƏTİ

Qərbi Kaspi Universitetinin Elmi Şurasının 22 05 2026-cı il tarixli iclasının qərarı ilə (protokol №11) təsdiq edilmişdir.

İmza:

**Bakı 2026**

## Qərbi Kaspi Universiteti

### Süni İntellekt Siyasəti

Süni intellektin (Sİ) sürətlə geniş yayılması və inkişafı dünya miqyasında ali təhsil müəssisələri üçün yeni imkanlar, eləcə də müəyyən çətinliklər yaratmışdır. Bu texnologiya akademik iş proseslərinin təkmilləşdirilməsi üçün nəhəng potensiala malik olmaqla yanaşı, tədris prosesinin bütün iştirakçıları tərəfindən məsuliyyətli yanaşma, müvafiq prinsiplər və etik tənzimləmə tələb edir.

Qərbi Kaspi Universitetində akademik dürüstlük təhsilin və tədqiqatın mərkəzi prinsipidir. Bu siyasət həm müəllimlərin, həm də tələbələrin Sİ vasitələrindən istifadə zamanı aşağıdakı təməl dəyərləri rəhbər tutmasını nəzərdə tutur:

- **Akademik dürüstlük:** Sİ alətlərindən istifadə müstəqil düşüncəni əvəz etməməlidir.
- **Tənqidi yanaşma:** Sİ vasitəsilə əldə edilən məlumatlar tənqidi süzgəcdən keçirilməlidir.
- **Məxfilik:** Şəxsi məlumatlar, kurs materialları və tədqiqat məlumatları Sİ alətlərinə yüklənməməlidir.
- **Fərdi Yaradıcılıq:** Təqdim olunan hər bir akademik iş, tədris materialı və tapşırıqlar fərdin öz intellektual əməyini və kreativliyini əks etdirməlidir.
- **Şəffaflıq:** Akademik iş zamanı istifadə olunan bütün köməkçi vasitələr və mənbələr açıq şəkildə bəyan edilməli, istinadlar düzgün qaydada göstərilməlidir.
- **Etibarlılıq:** Sİ yaratdığı məlumatlar və nəticələrin yoxlanılması, etibarlı və düzgün olmasına dair məsuliyyət birbaşa istifadəçinin üzərinə düşür.
- **Əlçatanlıq:** Bütün tələbələr rəsmi təsdiq edilmiş Sİ alətlərindən bərabər istifadə hüququna malikdir.

### Müəllimlərin Süni İntellektdən istifadəyə dair təlimatları

**Müəllimlər aşağıdakı məqsədlər üçün Sİ alətlərindən istifadə edə bilərlər:**

• Tədris materiallarının (slayd, test, nümunə məsələ) hazırlanması;

• Kurs planlamasında və proqram məzmununun yenilənməsində dəstək alınması;

• Tədqiqat prosesinin sürətləndirilməsi (ilkin ideyaların formalaşdırılması, ədəbiyyat icmalı, məqalə strukturu);

• Tələbə işlərinin plagiat və Sİ-dən istifadəsi baxımından ilkin yoxlanışı.

**Qadağalar:**

- Müəllim tərəfindən qiymətləndirmə rubrikalarının tam avtomatlaşdırılması
- Sİ vasitəsilə hazırlanmış materialların öz müəllifi kimi təqdim edilməsi
- Qiymətləndirmənin Sİ-yə həvalə olunması

**Müəllimlər:**

- Tələbələrə Sİ alətlərindən düzgün və etik istifadə qaydalarını izah etməlidir;
- Tapşırıqlar hazırlayarkən Sİ istifadəsinə icazə verilən və verilməyən hissələri açıq şəkildə göstərməlidir;
- Hər tapşırıq üçün “Sİ istifadə səviyyəsi” (icazəlidir / məhduddur / qadağandır) qeyd edilməlidir;
- Tələbələrin təqdim etdiyi işlərdə orijinallığı müxtəlif yoxlama üsulları ilə (plagiat sistemləri, şifahi müdafiə və s.) qiymətləndirməlidir;
- Analitik və tənqidi düşünməni təşviq edən tapşırıqlar hazırlamalıdır.
- Tələbənin fərdi işi mütləq müəllim tərəfindən yoxlanılmalıdır.
- Müəllim müəllif hüquqlarını və akademik etik qaydalarını qorumalıdır.

## Tələbələrin Sİ İstifadə Təlimatları

**İcazə verilən istifadə halları:**

- Mövzu üzrə ilkin məlumat toplanması və istiqamət müəyyənləşdirilməsi;
- Qrammatik düzəliş, yazı üslubunun inkişafı (son mətni tələbənin özü yazmalıdır);
- Xarici dil tapşırıqlarında linqvistik köməkçi kimi istifadə edilməsi;
- Təqdimat və layihə planlarının hazırlanması.

**Məcburi tələblər:**

• Sİ köməyindən istifadə olunan hər hansı iş "Sİ istifadə bəyannaməsi" ilə birgə təqdim edilməlidir;

• Bəyannamədə hansı alətdən, nə məqsədlə istifadə edildiyi yazılmalıdır;

• Sİ-nin hazırladığı məzmun müstəqil şəkildə təhlil edilmədən son işdə istifadə oluna bilməz.

**Qadağalar:**

• İmtahan,  və ya test zamanı Sİ alətlərinin istifadəsi;

• Sİ vasitəsilə hazırlanmış işin öz işi kimi təqdim edilməsi (bu akademik saxtakarlıq sayılır);

• Laboratoriya hesabatlarının, kurs işlərinin, buraxılış işlərinin Sİ tərəfindən tam yazılması.

**Etik və hüquqi məsələlər**

- Məxfi məlumatların süni intellekt platformalarına daxil edilməsi qadağandır.
- Müəllif hüquqları və məlumat təhlükəsizliyi prinsiplərinə riayət olunmalıdır.

**Qiymətləndirmə və nəzarət**

- Qiymətləndirmə zamanı tələbənin fərdi bilik və bacarıqları əsas götürülür.
- Sİ istifadə səviyyəsinə görə qiymətləndirmə:
- Minimum istifadə (yalnız redaktə və struktur): tam qiymətləndirilir;
- Orta istifadə (ideya və struktur dəstəyi): tələbənin şəxsi analizi üstünlük təşkil etməlidir;
- Yüksək istifadə (məzmunun böyük hissəsi Sİ tərəfindən): qiymət aşağı salınır və ya qəbul edilmir.
- Şübhəli hallarda müəllim tərəfindən:
    - şifahi sorğu;
    - əlavə yazılı tapşırıq;
    - təqdimat və ya müsahibə tətbiq oluna bilər.
- Qaydaların icrasına nəzarət müvafiq struktur rəhbərliyi tərəfindən həyata keçirilir.
- Qaydaların pozulması hallarında aşağıdakı tədbirlər tətbiq oluna bilər:
    - Tapşırığın etibarsız sayılması;
    - Qiymətin aşağı salınması;
    - Təkrar təqdimat tələbi;

- İntizam komissiyasına təqdim etmək.

**Əsas məqamlar**

- Süni intellektlə bağlı tətbiq edilən qaydalar birbaşa öyrənmə hədəflərini əsas götürür.
- Hər bir dekanlıq və kafedra universitetin bu Süni İntellekt Siyasətini əsas götürərək, öz sahəvi xüsusiyyətlərinə uyğun daxili süni intellekt qaydalarını hazırlaya bilər.
- Hər bir tapşırıq və ya fənn üzrə süni intellektdən hansı dərəcədə istifadə oluna biləcəyinə fənn müəllimləri qərar verir.
- Şəffaflıq və dürüstlük əsas prinsipdir. Hər hansı bir qayda pozuntusu ilə bağlı qərar verilməzdən öncə, tələbəyə (və ya aidiyyatı tərəfə) mütləq özünü ifadə etmək və izahat vermək imkanı yaradılır.
- Zərurət yarandıqda bu qaydalara dəyişiklik və əlavələr edilə bilər.

Sənədin sonu